## 470 Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli, 246 nömrəli Fərmanının 1-ci bəndinin 5-ci abzasının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi Fondu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 19 iyun 2000-ci il
№ 105

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 19 iyun tarixli, 105 nömrəli qərarı ilə

TƏSDİQ EDİLMİŞDİR

# Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi Fondu haqqında

# ƏSASNAMƏ

## I. ÜMUMİ MÜDDƏALAR

1. Məhkəmə nəzarətçilərinin və məhkəmə icraçılarının xüsusi Fondu (bundan sonra - Fond) "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən yaradılır.

## II. FONDUN MALİYYƏ MƏNBƏLƏRİ

1. Fond məhkəmələrin mülki və inzibati hüquqpozmalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların, habelə notariat orqanları tərəfindən verilmiş icra qeydlərinin məcburi icrası ilə bağlı olan hərəkətlər yerinə yetirildikdə, borclunun hesabından tutulan məbləğin 5 faizi hesabına formalaşdırılır.

Borclunun hesabından tutulan məbləğ dövlət büdcəsinə köçürüldüyü hallarda, vəsait dövlət büdcəsinə tam həcmdə bərpa edildikdən sonra, həmin vəsaitin 5 faizi Fondun hesabına köçürülür.

Fondun maliyyə vəsaiti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müvafiq xəzinə hesablarına köçürülür..

2. Fondun vəsaiti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin operativ idarəçiliyində və sərəncamında olur, istifadəçi (sərəncamçısı) dəyişdirilə bilməz.

3. İlin sonuna Fondda qalan vəsait Fondun yeni il üçün smetasının mədaxil hissəsinə daxil edilir.

## III. FONDUN İSTİFADƏ EDİLMƏSİ

Fondun vəsaitləri məhkəmə nəzarətçiləri və məhkəmə icraçılarının həvəsləndirilməsinə, texniki təminat məsələlərinin həll edilməsinə, məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətinin maliyyələşdirilməsinə və maddi - texniki təminatına sərf edilir.

## IV. FONDUN VƏSAİTLƏRİNİN SƏRF OLUNMASI ÜZƏRİNDƏ NƏZARƏT

1. Fondun vəsaitlərinin formalaşdırılması və sərf edilməsi üzərində nəzarət müəyyənləşdirilmiş qaydada maliyyə orqanları tərəfindən həyata keçirilir.

2. Ədliyyə Nazirliyi Fondun vəsaitlərinin formalaşdırılmasına və istifadə edilməsinə dair Maliyyə Nazirliyinə müvafiq hesabat təqdim edir.